# Nizami Cəfərovun Azərbaycançılıq görüşləri



*Salatın Əhmədova*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Akademik Nizami Cəfərovun elmi-siyasi fəaliyyətində ən aktual mövzulardan biri azərbaycançılıqdır. Azərbaycançılıq elmi müstəqillik qazandığımız illərdə daha müntəzəm şəkildə milli mətbuatımızın, siyasi fikir tariximizin əsas mövzularından olub, bu sahədə mükəmməl elmi-monoqrafik əsərlər çap olunub. Yaşar Qarayevin "Milli "mən" şüuru və etnik yaddaş-azərbaycançılıq", xalq yazıçısı Anarın "Azərbaycançılıq haqqında düşüncələr", Nizaməddin Şəmsizadənin "Azərbaycançılıq ideologiyası", İsa Həbibbəylinin "Azərbaycançılıq məfkurəsi yollarında", "Möhtəşəm azərbaycançılıq dərsliyi", Asif Əfəndiyevin "Azərbaycançılıq-türkçülük birliyi", Rəhim Əliyevin "Azərbaycançılıq: dünən, bu gün, sabah", Hacı Xanəli Babayevin "Azərbaycançılıq elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi", Nazif Ələkbərlinin "Türkçülük, yoxsa azərbaycançılıq?!", Səlahəddin Xəlilovun "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" və s.

Bütün bu dəyərli əsərlər sırasında Akademik Nizami Cəfərovun "Azərbaycanşünaslığın əsasları" əsəri mühüm yer tutur.

Azərbaycan milli dövlətçilik təfəkkürünün inkişa-fında mühüm rol oynayan türk dövlətçilk mədəniyyətinin, Azərbaycanın həm xalq, həm dil-təfəkkür sahibi, həm ortaq türk dünyasıyla bağlılığı, Azərbaycanın dövlətçilik siyasəti, inkişaf tarixi bu kitabda əhatəli şəkidə elmi-nəzəri təhlilini tapmışdır.

Nizami Cəfərov Azərbaycanın türkləşməsi və Azərbaycan xalqının təşəkkülü dövrünü araşdırır.

Azərbaycanı "türk əsaslı Azərbaycan xalqının tarixi vətəni, dünyanın qədim etnokulturoloji mərkəzlərindən biri" bilir. Azərbaycanlıların xalq, yaxud millət (superetnos) olaraq məhz Azərbaycanda formalaşdığını, Azərbaycan xalqının tarixinin "ümumtürk tarixinin üzvi tərkib hissəsi" olduğunu, bununla belə, hər bir türk xalqı kimi, Azərbaycan xalqının da özünəməxsus formalaşma, inkişaf tarixi" olduğunu yazır. Araşdırmalara əsasən bu tarixin özündə iki mühüm dövrü birləşdirir:

1) diferensiasiya
2) inteqrasiya

Diferensiasiya dövrü dedikdə türk etnosunun müxtəlif xalqlara (o sıradan Azərbaycan türklərinə, yaxud Azərbaycan xalqlarına) ayrılması prosesinin intensiv dövrü nəzərdə tutulduğunu, İnteqrasiya dövrünün isə Azərbaycan cəmiyyətinin etnik tarixinin sonrakı dövrlərinə aid olub, türk (və bir sıra qeyri-türk etnoslarının) konsolidasiyası, bütöv bir xalq təşkil etməsi prosesindən ibarət olduğunu göstərir. Azərbaycan xalqının etnososial xarakterinin diferensiasiya dövründə müəyyənləşsə də, həmin xarakterin bir sıra cizgilərinin məhz inteqrasiya dövründə meydana çıxdığını, bununla belə, Azərbaycan superetnosunun (eləcə də Azərbaycan dilinin) təşəkkülündə, təkamülündə diferensiasiya-inteqrasiya münasibətləri kifayət qədər mürəkkəb təbiətə malik olduğunu nəzərə almaq lazım gəldiyini yazır. "Azərbaycanda (və həmhüdud regionlarda) xalqın (və dilin) formalaşdığı dövrdə baş verən rəngarəng ictimai-siyasi hadisələr həmin mürəkkəbləşmə üçün əsas şərt olmuş, ölkədə "narahat" bir etnik proses getmişdir...". Cəfərov N. Azərbaycanşünaslığın əsasları. - Bakı, Pedaqogika, 2005. 5 səh.).

Azərbaycan xalqının tarixən məskunlaşdığı (superetnos olaraq formalaşdıgı!) ərazinin müxtəlif dövrlərdə müxtəlif adlarla adlandırılsa da, "Azərbaycan" sözünün "daha geniş yayılaraq 500 min kvadratmetrə qədər ərazinin əsas adına" çevrildiyini yazır. Azərbaycan tarixçilərindən İ.Əliyevin fikirlərini (İ.Əliyev bildirir ki, "Azərbaycan" sözü "regionun tarixində görkəmli rol oynamış Atropatın adı" ilə bağlıdır...), "Cənubi Azərbaycanın bütün ərazisi və Şimali Azərbaycan torpaqlarının xeyli hissəsinin hökmdarı olan" Atropatın adının "tarixi mənbələrdə ilk dəfə e.ə. 331-ci ildə çəkilsə də", Atropatın etnik mənsubiyyəti barədə heç bir məlumat verilmədiyinə diqqəti çəkir.

Atropatenanın etnolinqvistik mənzərəsi barədə müəyyən təsəvvür yaradacaq tarixi mənbələrin olmadığını, "Atropatena" ad-toponiminin antik (etimoloji) mənasınının ilk dəfə atəşpərəst iranlılar, yaxud irandilli mühit unutdurduğunu, "Atropatena" (Atropatın yurdu) "Azərbaycan"a (odlar yurdu, müqəddəs odun qorunduğu məkana) çevrildiyini görür... "Və görünür, iranlılar üçün "Azərbaycan"ın hansı konkret coğrafiyanı əhatə etməsi o qədər də maraqlı deyildi, onlar həmin əraziyə vətən kimi yox, ilahi bir məkan, hüdudsuz müqəddəs bir yer kimi baxırdılar. Mənbələr göstərir ki, Atropatena-Azərbaycanda çoxlu od məbədləri mövcud idi. Atəşpərəst iranlılar, hətta daha uzaqdan hindlilər buraya ziyarətə gəlirdilər. Etiraf etmək lazımdır ki, "Azərbaycan" sözü türkdilli mühitdə nəinki formalaşmamış, həmin mühitə çox sonralar - müsəlman intibahı dövründə daxil olmuşdur. Eramızın ilk əsrlərindən başlayaraq Azərbaycana və həmhüdud regionlara gələrək burada məskunlaşan hun-qıpçaq türkləri dünyagörüşü etibarilə atəşpərəstlikdən çox uzaq olduqlarına görə "Azərbaycan" sözünün tarixən qazandığı ideoloji semantika üzərində, demək olar ki, düşünməmişlər. Bununla belə, iranlı təsəvvürünün yaratdığı "müqəddəs Azərbaycan" obrazı müsəlman intibahı dövründən etibarən geniş yayılmağa başladı. Və qeyd etmək lazımdır ki, həmin təsəvvür regionun rəsmi dünyagörüşü olan İslama belə güzəştə getmədiyinə görə Azərbaycan-müsəlman tarixçilərinin yaddaşında İslama qarşı ən çox müqavimət göstərmiş bir ölkə olaraq qalmışdır"

Azərbaycan tarixşünaslığının banilərindən A. Bakıxanovun "Azərbaycan" sözünü "Azər Babaqan" (Babəkin odu) kimi izah etməsinə aydınlıq gətirir: "Əlbəttə, burada söhbət tarixçinin nə dərəcədə səhv etməsindən getmir, ondan gedir ki, orta əsrlər müsəlman tarixşünaslığında Azərbaycanın İslamaqədərki dünyagörüşləri ilə bağlılığı təsəvvürü olduqca güclü olmuş, son dövrlərə qədər yaşamış, hətta "müasir Azərbaycan" anlayışının formalaşmasına da təsir göstərmişdir". Cəfərov N. Azərbaycanşünaslığın əsasları. - Bakı: Pedaqogika, 2005. 5 səh.).

"Azərbaycan"ın İran mənşəli deyil, məhz türk mənşəli bir söz olması barədə də mülahizələrə toxunur: "Əlbəttə, yunan sözünə iranlı "interpretasiya"sı nə dərəcədə təbii idisə, türk "interpretasiya"sı da o dərəcədə təbii sayıla bilərdi, lakin məsələ burasındadır ki, türk "interpretasiya"sı orta əsrlərdə deyil, XX əsrin 70-80-ci illərində meydana gəlmişdir..." Cəfərov N. Azərbaycanşünaslığın əsasları. - Bakı: Pedaqogika, 2005. 5 səh.).

Professor M. Seyidovun fikirləri ilə ("Azərbaycan" yer adı haqda orta yüzilliklərdən üzü bəri ayrı-ayrı xalqların alimləri dürlü mülahizələr, fikirlər söyləmişlər. Ancaq hələ də bu söz sirrini açmaqdan elə bil çəkinir və onun elmi sözaçımı - etimoloji təhlili öz doğrudüzgün həllini tapmamışdır... "Azərbaycan-uğurlu, yaxşıistər (Az), yaxşıistər qırmızı, yəni Günəş (AzarAzər), varlı ata (dan) deməkdir. O, vaxtilə yaxşıistər qırmızı, yəni Günəş antropomorfik tanrısının adı imiş. Sonralar Az qəbiləsindən olan xan, insan mənasında işlənmişdir") razılaşmır. Akademik Nizami Cəfərov bu fikirdədir ki, "Hər şeydən əvvəl ona görə ki, "Azərbaycan" sözü türkdilli mühitdə formalaşdığı üçün bu qədər mürəkkəb tarixi inkişaf mərhələ-



sindən keçə bilməzdi. İkincisi, müəllifin təklif etdiyi etimologiya nə Azərbaycan türklərinin, nə də ümumiyyətlə, türklüyün tarixi dünyagörüşü ilə bağlı deyil. Və nəhayət, üçüncüsü, sözün "əvvəlki mənası ilə "sonrakı mənası" arasında semantik varislik, demək olar ki, yoxdur... Azərbaycan türkləri, iranlılardan fərqli olaraq, Azərbaycanı "müqəddəs məkan" deyil, məhz Vətən kimi dərk edib məskunlaşmışlar. Və "Azərbaycan" sözü məhz Azərbaycan türkləinin təfəkküründə formalaşan (konkret!) ərazinin müasir adına çevrilmişdir ki, bunun da əsasında onların tədricən məskunlaşdığı coğrafi miqyas (onun genişlənməsi süreti) dayanmışdır.

Azərbaycanın bir ölkə olaraq hüdudlarının müəyyənləşməsində Azərbaycan xalqının təşəkkülünün həlledici təsiri olduğunu söyləyir. Xalq formalaşdıqca ölkənin etnocoğrafi hüdudlarının da müəyyənləşdiyi, Azərbaycan ərazisində tarixən müxtəlif dövlətlərin mövcudluğu ölkənin bütöv bir siyasi hadisə kimi qavranılmasına mane olmaqla yanaşı, "Azərbaycan" anlayışının formalaşması prosesini də" ləngitdiyini söyləyir. "Təsadüfi deyildir ki, həmin anlayışın etnoqrafik məzmunu orta əsrlərdə siyasi məzmunundan həmişə daha üstün, aparıcı olmuşdur... Burada Azərbaycanda məskunlaşmış türklərin dünyagörüşü də mühüm rol oynamışdır: türklər bu və ya digər etnos-tayfa ilə həmin etnos-tayfanın məskunlaşdığı ərazi arasında əlaqə görmüşlər". Məsələn, Azərbaycan türklərinin ilk möhtəşəm eposu "Dədə Qorqud"da oğuzların yaşadıqları məkan məhz Oğuz adlanır. Türklər Azərbaycana gələndə, heç şübhəsiz, özlərinin yaratdığı etnotoponimlərin işlədilməsinə üstünlük vermişlər, əvvəlki yer adlarının istifadə edilməsinə isə XI-XII əsrlərdən sonra başlamışlar ki, onlardan ən məşhuru "Azərbaycan" olmuşdur..." (1 -

. ).

"Azərbaycan" anlayışının tarixində XIX əsrin sonu, XX əsrin əvvəlləri xüsusi mərhələ təşkil etdiyini, bu dövrdə həmin anlayışın etnoqrafik, ictimai-siyasi, ideoloji məzmunu barədə geniş miqyasda düşünülməyə başlanıldığını, Milli düşüncənin təzyiqi ilə ilk müstəqil Azərbaycan dövlətinin yarandığını, onun ərazisinin məhdudluğu dərhal diqqəti çəkdiyini, "daha uzunömürlü Azərbaycan SSR-in yaranması", XX əsrin sonlarına doğru "həmin əsas üzərində müstəqil Azərbaycan dövləti meydana çıxaraq" yüksəldiyini bildirən Akademik Nizami Cəfərov bildirir ki, "Ümumiyyətlə, həm birinci, həm ikinci, həm də xüsusilə, üçüncü respublika dövründə "Azərbaycan" anlayışı geniş siyasi məzmun kəsb etməyə başlayır, Azərbaycanın şimalı və cənubu barədə söhbət daha fəal bir şəkildə gedir. İkiyə (yalnız ikiyəmi?) bölünmüş ölkənin, xalqın tarixi faciəsi milli ictimai təfəkkürün ən müxtəlif sahələrində təzahür edir. Beləliklə, "Azərbaycan" anlayışı zəngin bir tarixə malikdir. Həmin tarixi inkişaf prosesində bu anlayış konkretləşmiş, siyasi-ideoloji məzmunca dəqiqləşmiş, Azərbaycan xalqının yaşadığı geniş ərazini ifadə etmək üçün motivlənmişdir... "Azərbaycan" sözü türkdilli mühitdə formalaşmasa da, "Azərbaycan" anlayışının son min ildəki təkamül-formalaşma prosesi, əsasən, Azərbaycan türk təfəkkürünün məhsuludur" -

Azərbaycanın etnik tarixinin Azərbaycan xalqının formalaşması tarixindən qədim olduğunu söyləyən Akademik Nizami Cəfərov "bu isə o deməkdir ki, Azərbaycan xalqının formalaşması prosesi başlayana qədər Azərbaycanda (və həmhüdud regionlarda) kifayət qədər mürəkkəb etnik hadisələr baş vermişdir. Bunun bir səbəbi, haqqında söhbət gedən coğrafiyanın yaşayış üçün münasib təbii şəraitidirsə, digər çox mühüm səbəbi müxtəlif istiqamətlərə gedən yollar üzərində yerləşməsi, etnik, sosial-siyasi fəallığı, qaynarlığıdır... Və etiraf etmək lazımdır ki, Azərbaycanın etnik tarixinin qədim dövrü sonrakı dövrləri ilə müqayisə olunmayacaq qədər mübahisəlidir - məsələnin mürəkkəbliyi isə burasındadır ki, həmin mübahisələr artıq öz elmi-metodoloji əhəmiyyətini (enerjisini!) itirərək "siyasiləşmiş", başqa sözlə, etnosiyasi ambisiyaların, subyektiv maraqların münaqişə obyektinə çevrilmişdir"

Lakin qədim dövrlərdə Azərbaycanda hansı etnosun, yaxud etnosların (iberqafqazlıların, iranlıların, yaxud altaylıların, türklərin...)1 aparıcı yer tutmasından asılı olmayaraq Azərbaycan xalqının "qədim dövrün sonu, orta əsrlərin əvvəllərindən başlayaraq məhz türk etnosları əsasında" formalaşdığını, həmin etnosların (türklər) buraya eyni dövrdə deyil, müxtəlif dövrlərdə gəldiyini, qədimdən Azərbaycanda (və həmhüdud regionlarda) məhz türk etnoslarının mövcud olması, hətta türklərin dünyaya Azərbaycandan (ümumiyyətlə, Ön Asiyadan) yayılması barədə son zamanlara qədər müəyyən elmi-ictimai maraq doğuran nəzəriyyə artıq öz "azarkeş"lərini, de-